# UNESCO Aşıq Ələsgəri yad edəcək

**UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının təşəbbüsü və dəstəyi, eləcə də Azərbaycan Milli Elmlər Akademiyasının müvafiq qərarı ilə Aşıq Ələsgərin (22 mart 1821 – 7 mart 1926) vəfatının 100-cü ildönümü beynəlxalq qurumun 2026–2027-ci illər üzrə qeyd olunacaq tədbirlər proqramına daxil edilib.**



Bu barədə Milli Komissiyanın baş katibi Seymur Fətəliyev "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir" və ya "Azərbaycan əraziləri haqqında etno-coğrafi hay-erməni hiylə və fitnələri" mövzusunda keçirilən konfransda çıxışı zamanı məlumat verib. Onun açıqlamasına görə, bu məsələnin UNESCO-nun İcraiyyə Şurasının 2025-ci ilin aprelində keçirilmiş 221-ci sessiyasında müzakirə edilərək təsdiqlənməsi mühüm nailiyyətdir.

"Əminəm ki, Aşıq Ələsgərin vəfatının 100-cü ildönümünün 2026-cı ildə UNESCO səviyyəsində qeyd olunması prosesində dövlət qurumları ilə yanaşı, Qərbi Azərbaycan icmasının nümayəndələri də iştirak edəcək, xalqımızın zəngin mədəniyyətinin dünya ictimaiyyətinə layiqincə tanıdılmasına dəyərli töhfələrini verəcəklər" – deyə Seymur Fətəliyev bildirib.

***XQ***

Xalq qəzeti.- 2025.- 24 aprel (№ 81).- S.14.